UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2024.5.83.009

# MÜASİR DÖVRDƏ ALMANİYANIN MİQRASİYA SİYASƏTİ

**FƏXRİ QURBANZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı*
*Email: fexri.qurbanzade@gmail.com*

## Giriş

Miqrasiya prosesi müasir dövrümüzün ən aktual məsələlərindən biridir. Bu proses dünyanın bütün ölkələrində müəyyən miqyasda baş verir. Lakin bəzi ölkələr vardır ki, miqrasiya prosesi onların daxili və xarici siyasətinin ayrılmaz bir parçasına çevrilib. Bu baxımdan Avropa regionu, xüsusilə, Qərbi Avropa ölkəsi hesab olunan Almaniya Federativ Respublikası daha çox fərqlənir.

85 milyon əhalisi olan Almaniya əhali sayına görə Avropada birinci yerdə dayanır. Eyni zamanda, Almaniya miqrantların ən çox olduğu beş ölkədən biridir. İlk beşliyə daxil olan ölkələr ABŞ, Almaniya, Səudiyyə Ərəbistanı, Rusiya və Böyük Britaniyadır [1]. Almaniya əhalisinin 26%-i yəni əhalinin hər dörd nəfərindən biri isə miqrasiya mənşəlidir. Miqrasiya mənşəli dedikdə ya özü ya da valideynlərindən ən azı biri miqrasiya yolu ilə gəlmiş insanlar nəzərdə tutulur. Bu insanların yarıdan çoxu (52.4%) alman vətəndaşlığına sahib olsa da böyük bir hissəsi (47.6%) xarici ölkə vətəndaşlarıdır [2].

Miqrasiya mənşəli insanların 30.4%-i Avropa İttifaqı ölkələrindən, 31.3%-i Avropa İttifaqına üzv olmayan Avropa ölkələrindən, digər hissəsi isə Avropa regiounundan kənar ölkələrdən gələn insanlar təşkil edir. Miqrasiya mənşəli insanların ən çox gəldiyi ölkələr isə Türkiyə, Polşa, Rusiya, Ruminiya, Qazaxıstan, Suriya və Ukraynadır [3].

Həmçinin, qeyd etmək lazımdır ki, Almaniyada 1980-ci illərdən etibarən əhali artımı sırf miqrasiya hesabına baş verir. Belə ki, ölkədə ölüm faizi, doğum faizindən yüksəkdir. Miqrasiya saldosu isə son illər daim müsbət olaraq qalır. Bu göstərici hər il artmaqda davam edir. 2022-ci ildə miqrasiya saldosu ən yüksək həddə çataraq 1.46 milyon təşkil etmişdir[4].

Bu baxımdan Almaniyada miqrasiya prosesinin tənzimlənməsi və ona nəzarət edilməsi olduqca vacibdir. Almaniyanın miqrasiya siyasətinin əsas mahiyyəti də ölkəyə əcnəbilərin axınına nəzarət və idarə etmək, eyni zamanda qanunsuz miqrasiyanın qarşısını almaqdır. Həmçinin, Almaniyanın miqrasiya siyasəti bir tərəfdən, ixtisaslı işçilərin ölkəyə immiqrasiyasını təşviq etmək, digər tərəfdən, siyasi təqiblərdən qaçan və ya yaşadığı ölkədə həyatları üçün təhlükə olan insanlara kömək etmək məqsədi güdür [5].

**Almaniyaya miqrasiya axınının səbəbləri və istiqamətləri.** Almaniyaya miqrant axınına baxsaq onları məqsəd və vasitələrinə görə dörd istiqamət üzrə qruplaşdırmaq mümkündür. İlk növbədə ölkəyə işçi qüvvəsinin axınıdır ki, bu Almaniya miqrasiya siyasətinin əsas təməl daşı hesab olunur. Bura işləmək və biznes qurmaq üçün gələnlər daxildir. İkinci istiqamət qaçqınların və sığınacaq axtaranların gəlməsidir. Bu da Almaniyanın humanitar öhdəliyi ilə bağlıdır ki, siyasi səbəblərdən təqib olunan şəxslərə Almaniyada sığınacaq hüququ əldə etmək imkanı verir, hansı ki bu müddəa Almaniyanın Konstitusiyasında da birbaşa qeyd olunub. Üçüncü istiqamət Almaniyada işləyən işçilərin ailə üzvlərinin ailə birləşməsi yolu ilə gəlməsidir. Son olaraq, Almaniyaya təhsil, peşə hazırlığı(Ausbildung) üçün gələn əcnəbilər qeyd olunmalıdır ki, onların da sayı kifayət qədərdir.

Almaniya iqtisadi cəhətdən dünyanın aparıcı ölkələrindən biridir. Ümumdaxili məhsulun həcminə görə Avropada birinci, dünyada isə üçüncü yer tutur. Buna baxmayaraq, hal-hazırda ölkə ciddi işçi çatışmazlığı ilə üzləşir. 2019-cu il statistikasına əsasən 50 müxtəlif sahə üzrə bir milyondan çox iş yeri vakant qalıb ki, bu da ölkədə əsas problemə çevrilib. Bu problemlərdən sonra 2020-ci ilin mart ayında Almaniyada yeni immiqrasiya qanunu qəbul edildi. Bu qanun əcnəbilərə viza almaq, peşə hazırlığı kurslarında təcrübə keçmək (Ausbildung) və ya hətta öz müstəqil biznesini qurmaqla Almaniyaya ixtisaslı işçi qüvvəsi kimi immiqrasiya etməyə imkan verir. Lakin, 2020-ci ildən bəri görülən bütün səylərə baxmayaraq, Almaniyada işçi qüvvəsi çatışmazlığı o qədər artıb ki, 2022-ci ildə işçi ehtiyacı 1.7 milyon nəfərə çatıb. Bu rəqəmin növbəti illərdə daha da artacağı və 2030-cu ilə qədər 5 milyon nəfərə çatacağı təxmin edilir [6].

Almaniyada işçi qüvvəsinə tələbat ona görə artır ki, ilk növbədə, ölkədə demoqrafik dəyişikliklər və

əhalinin qocalması prosesi baş verir, bu da öz növbəsində əmək bazarına daxil olan işçi qüvvəsindən daha çox insanın təqaüdə çıxmasına səbəb olur. Eyni zamanda, əhalinin artım faizinin azalması gənclərin sayının azalmasına səbəb olur ki, bu da vəziyyəti daha da pisləşdirir. Bundan əlavə, təhsil sistemindəki boşluqlar, xüsusilə, sənaye və yüksək texnologiyalı sektorlarda işaxtaranların bacarıqları ilə işəgötürənlərin tələbləri arasında uyğunsuzluğun yaranmasına səbəb olur. İstehsal, mühəndislik və İT kimi sektorlardakı sürətli iqtisadi artım ixtisaslı işçilərə tələbi artıraraq, əksər hallarda təklifi üstələyir. Həmçinin qeyd etmək lazımdır ki, şəhərətrafı ərazilər şəhər mərkəzlərindən daha ciddi çatışmazlıqlarla üzləşir [6].

**Almaniyaya işçi qüvvəsi axını**

Buna görə, Almaniyaya, mövcud iqtisadi artımı, iqtisadi sabitliyi və sosial sığorta sistemini indiki formada saxlamaq üçün ixtisaslı işçilər lazımdır. Almaniya Federal Hökumətinin miqrasiya siyasəti də Almaniyada, Aİ-yə üzv ölkələrdə və Aİ-dən kənar ölkələrdə potensial ixtisaslı işçi qüvvəsindən istifadə etməyi hədəfləyir.

Almaniyanın hazırkı əmək miqrasiyası sistemi də əmək bazarının ehtiyac və tələblərinə uyğunlaşdırılıb və bu da ölkənin demoqrafik strategiyasının bir hissəsidir. Qeyd edək ki, Almaniyaya işçi qüvvəsi axını hələ İkinci Dünya müharibəsindən sonrakı dövrdə olmuşdur. Bu dövrdə sürətlə artan iqtisadiyyatını işçi qüvvəsi ilə təmin etmək üçün müxtəlif ölkələrdən işçi qüvvəsini ölkəyə gətirməyi nəzərdə tutan ikitərəfli müqavilələr imzalanmışdır. İlk növbədə 1955-ci ildə İtaliya ilə bağlanan müqavilə ilə Cənubi Avropa və Aralıq dənizi regionundan əcnəbi işçiləri işə götürülməsinə başlanıldı. Daha sonra bu cür müqavilələr İspaniya, Yunanıstan (1960), Türkiyə (1961), Mərakeş (1963), Portuqaliya (1964), Tunis (1965) və Yuqoslaviya (1968) ilə də imzalandı [7].

Lakin 1970-ci illərdə dünya iqtisadi böhranının baş verməsi iqtisadi yavaşlamaya səbəb oldu ki, bunun nəticəsində də 1973-cü ilin noyabrında xarici işçi qüvvəsinin cəlb edilməsi dayandırıldı. Sonrakı dövrlərdə iqtisadiyyatdakı böyümə yenidən işçi qüvvəsinin ölkəyə axınına tələb yaratdı ki, bu sahədə müvafiq qanunlara edilən dəyişikliklər xarici işçilərin Almaniyaya köçməsi imkanlarını tədricən genişləndirdi. Bununla bağlı ən vacib dəyişikliklərdən biri Avropa İttifaqının 2009-cu ildə qəbul etdiyi və Avropa İttifaqına üzv olmayan ölkələrdən olan işçilərin Avropa İttifaqı ölkələrində işləməsinə şəraitin yaradılmasını nəzərdə tutan "Mavi kart"-ın 1 avqust 2012-ci ildə ölkədə tətbiqi oldu. Bununla da, Aİ-yə daxil olmayan ölkələrdən olan ixtisaslı işçilərin, universitet məzunlarının bürokratik maneələr olmadan Almaniyada qanuni işləməsi və yaşamasına şərait yaradılmasını imkan verildi [8].

"Mavi kart" əldə etmək üçün sadəcə iki tələb var: müraciətçi ali təhsilli olduğunu və illik 48400 euro maaşı olan işi olduğunu sübut etməlidir. "Mavi kart" immiqrant işçilər və onların ailələrinə əlavə imtiyazlar da verir. Üç ildən sonra "Mavi kart" sahibləri daimi məskunlaşma icazəsi ala bilərlər, yaxşı alman dili bilikləri olan namizədlər isə bu icazəni iki ildən sonra əldə edə bilərlər. Həmçinin kart sahiblərinin öz ailə üzvlərini də özləri ilə bərabər gətimək imkanları mövcuddur. Lakin, "Mavi kart"-ın tətbiq edilməsi ölkədə işçi çatışmazlığını aradan qaldıra bilmədiyinə görə Almaniyanı əcnəbi işçilər üçün daha cəlbedici etmək məqsədi ilə 2023-cü ildə yeni immiqrasiya qanunu qəbul edildi.

İxtisaslı işçi çatışmazlığını aradan qaldırmağı nəzərdə tutan bu qanun layihəsi də Aİ-yə daxil olmayan ölkələrdən ixtisaslı işçi qüvvəsinin Almaniyaya immiqrasiyasını nəzərdə tutur. Bu qanunun əsas müddəaları isə belədir: uyğun olan müraciətçilərə Almaniyada iş axtarmaq üçün bir illik yaşayış icazəsi verən bal əsaslı "Fürsət Kartı"nın yaradılması; peşə təcrübəsi ilə işə qəbul yollarının asanlaşdırılması, alman dili bacarıqları və təhsil ixtisaslarının tanınması ilə bağlı tələblərin azaldılması; əcnəbi işçilərə ixtisaslaşdığı sahə üzrə istənilən iqtiqamətdə işləmək imkanının verilməsi; kifayət qədər təcrübəsi olan informasiya texnologiyaları mütəxəssislərinin, hətta rəsmi təhsili olmasa belə, Avropa İttifaqının "Mavi kart"ına müraciət etmək imkanının verilməsi; daimi yaşamaq hüququ əldə etmək üçün Almaniyada tələb olunan yaşayış müddətinin azaldılması [8] .

Bu qanun layihəsinin ilkin olaraq 2024-cü ilin martında qüvvəyə minməsi nəzərdə tutulurdusa, 2023-cü ilin noyabrı, 2024-cü ilin martı və 2024-cü ilin iyununda mərhələli şəkildə qüvvəyə minmişdir. Qanunun əsas müddəalarından olan "Fürsət kartı" -na əsasən qarışıq meyarlar sisteminə görə ən azı altı bal toplayan peşə təcrübəsi və ya universitet təhsili olan xarici vətəndaşlar Almaniyada iş axtarmaq məqsədi ilə birillik (bərpa olunan) yaşayış icazəsi üçün müraciət edə bilər. Əgər göstərilən müddətdə iş tapa bilməsələr, ölkəni tərk etməli olacaqlar.

Qeyd edək ki, ixtisaslı işçilər dedikdə, tamamlanmış peşə təhsili və ya ali təhsili olan işçilər nəzərdə tutulur. Bura istənilən sahədə ali təhsilli olan işçilər, ali təhsili və ya ona ekvivalent dərəcəsi olan İT işçiləri, alman universitetlərinin məzunları, universitetlərdə və elmi-tədqiqat institutlarında işləyən tədqiqatçılar, habelə tədqiqat qruplarında çalışan mühəndis və texniki işçilər, rəhbər işçilər, dövlət məktəblərində və müstəqil məktəblərdə işləyən müəllimlər, peşəkar idmançılar və məşqçilər, rəssamlar, jurnalistlər, xüsusi aşpazlar və s. daxildir. Əgər bu işçilər Aİ-nin "Mavi kartı"nı əldə edə bilmirlərsə, onlara ilkin olaraq müvəqqəti yaşayış icazəsi verilir. Əgər bu müvəqqəti icazə bitəndə hələ də işləyirlərsə, onların yaşayış icazəsi yenilənir. Beş ildən sonra isə onlar daimi yaşama icazəsi ala bilərlər. Xüsusilə ali təhsil almış şəxslər üçün müvəqqəti yaşayış icazəsi daimi yaşayış icazəsi ilə daha tez əvəzlənə bilir.

Qeyd edək ki, yuxarıda qeyd olunan vasitələrdən əlavə iş axtarış vizası həmçinin ailə birləşməsi yolu ilə Almaniyaya gələn əcnəbilərin də sayı kifayət qədərdir. İş axtarma vizası ilə Aİ üzvü olmayan ölkələrdən olan ixtisaslı işçilər uyğun iş axtarmaq üçün altı ay müddətinə Almaniyaya gələ bilərlər. Bunun üçün işçilərin ali təhsili və bank hesablarında işləmədən özlərini təmin edəcək qədər vəsaitə malik olmalıdırlar. Əgər onlar altı ay ərzində iş tapsalar, Almaniyada qalıb lazımi iş icazəsi ala bilər və ya Aİ "Mavi kartı"ına müraciət edə bilərlər. Bu viza əsasən Almaniya əyalətlərindən kiçik və orta biznesə kömək etmək üçün nəzərdə tutulub.

Ailə birləşməsi dedikdə, Almaniyada çalışan və yaşayış yeri olan əcnəbi işçilər bir ildən artıq qalmaq niyyətində olduqları halda mənşə ölkəsində olan həyat yoldaşlarını Almaniyaya gətirmələri nəzərdə tutulur. Bunun üçün, ailə birləşməsi yolu ilə gələn insanlar müəyyən səviyyədə dil biliyinə sahib olmalıdırlar. Almaniyaya daxil olduqdan sonra nikaha girən şəxslərin həyat yoldaşları isə onlar burada ən azı iki il yaşadıqdan sonra Almaniyaya gələ bilərlər. Uşaqlara isə istənilən mərhələdə valideynləri ilə gəlməyə icazə verilir. Ailənin birləşməsi yolu ilə Almaniyaya gələn və yaşayış yeri olan hər hansı ailə üzvü ölkəyə gəldikdən sonra əmək bazarına məhdudiyyətsiz və daimi çıxış əldə edə bilər.

Almaniyada təhsil alan əcnəbi tələbələrin sayı da kifayət qədər çoxdur. Hazırda Almaniyada 450 mindən artıq əcnəbi tələbə təhsil alır və bu say ildən-ilə artmaqda davam edir. Tələbələrin təhsil üçün Almaniyanı seçmələrinin əsas səbəbləri kimi təhsilin pulsuz olması, yaşam xərclərinin yüksək olmaması, yüksək keyfiyyətli təhsil sisteminin mövcudluğu, təhsil müddətində və bitirdikdən sonra işləmək imkanının olması, çoxlu sayda təqaüd proqramlarının mövcudluğu və demək olar ki, dünyanın müxtəlif ölkələrindən tələbələrin orada təhsil alması göstərilə bilər. Əcnəbi tələbələrin ən çox təhsil aldığı ixtisas mühəndislik ixtisaslarıdır. Əcnəbi tələbələrin ən çox olduğu ölkələr isə Hindistan, Çin, Suriya, Avstriya və Türkiyədir [9].

Almaniyada ali təhsil alan əcnəbi məzunların Almaniyanın əmək bazarına cəlb olunması üçün şərtlər də xeyli asanlaşdırılıb. Onlar təhsillərini bitirdikdən sonra iş tapmaq üçün 18 ay vaxt verilir ki, bu müddət ərzində məhdudiyyətsiz işləyə bilərlər. Onlar təhsillərinə uyğun bir işdə iki il işlədikdən sonra Almaniyada daimi qala bilərlər. Həmçinin, Almaniyada peşə təhsilini müvəffəqiyyətlə başa vurmuş əcnəbilərin oxuduqları peşə üzrə işləmək üçün burada qalmaq imkanları var. Onlara peşələrinə uyğun iş axtarmaq üçün bir il vaxt verilir. Bir il ərzində onlar özlərini təmin etmək üçün məhdudiyyətsiz işləmək imkanları var.

**Almaniyada illegal miqrasiya ilə mübarizə**

Almaniyanın miqrasiya siyasətinin başlıca istiqamətlərindən biri də illeqal miqrasiyanın qarşısını almaqdır. Hazırda Almaniyada yaşayış icazəsi olmadan yaşayan 280 mindən artıq illegal miqrant mövcuddur [10]. İllegal miqrasiyanın qarşısının alınması qeyri-leqal məşğulluğa qarşı mübarizə ilə sıx bağlıdır, çünki qeyri-leqal məşğulluq imkanının olması insanların ölkəyə qeyri-qanuni yolla daxil olmaq həvəsini də artırır. Almaniyada qeyri-qanuni miqrasiya və onun cinayətə, əmək bazarına və sosial sığorta sistemlərinə təsiri cəmiyyət üçün xüsusi problem yaradır və buna görə də onun qarşısının alınması prioritet istiqamətlərdən biridir. Qeyri-qanuni yolla ölkəyə daxil olmuş və Almaniyada qalmaq üçün hər hansı bir səbəbi olmayan insanların deportasiya edilməsi, qaçaqmalçılıq və insan alverinin qarşısının alınması da miqrasiya siyasətinin tərkib hissəsidir.

2006-cı ilin may ayında yaradılmış "İllegal Miqrasiya üzrə birgə Təhlil və Strategiya Mərkəzi" (GASİM) hakimiyyət orqanlarını və digər inzibati orqanları bir araya gətirməklə ümumi və mütəşəkkil

cinayətkarlıq, xüsusən də qaçaqmalçılıq haqqında məlumat toplamaq, təhlil etmək və qiymətləndirmək və qeyri-qanuni məşğulluq və illeqal immiqrasiya ilə bağlı sosial müavinətlərdən sui-istifadənin qarşısının alınmasında əsas rol oynayır [11].

**Almaniyada sığınacaq hüququnun verilməsi**

Almaniyada sığınacaq hüququna xüsusi önəm verilir. Belə ki, Almaniyada bir çox başqa ölkələrdən fərqli olaraq, sığınacaq hüququ təkcə "Qaçqınlar statusu haqqında" 1951-ci il Cenevrə Konvensiyası ilə təsbit olunmur; həm də əsas hüquq kimi Almaniya Konstitusiyasında qeyd olunmuşdur. Bu, Almaniyanın qaçqınları qəbul etmək üçün tarixi və humanitar öhdəliyini yerinə yetirməyə hazır olduğunu ifadə edir. Həmçinin, Almaniya qaçqınların sayına görə də, dünya üzrə ilk beşlikdə yer alır. Ölkədə 2.6 milyon qaçqın var ki, bu saya görə dünya üzrə İran, Kolumbiya və Türkiyədən sonra dördüncü yeri tutur [12]. Xüsusilə, son illərdə Yaxın Şərqdə və Şərqi Avropada müharibələrin baş verməsi milyonlarla insanın sığınacaq üçün Almaniyaya müraciət etməsinə səbəb olub.

Sığınacaq verilməsi üçün müraciət edənlər Almaniya Miqrasiya və Qaçqınlar üzrə Federal İdarəsinin (BAMF) tərəfindən yoxlanılır. Sığınacaq müraciəti qəbul edilərsə, sığınacaq hüququ verilmiş şəxslər və qaçqın statusu almış şəxslər müvəqqəti yaşamaq icazəsi alır və sosial sığorta sistemində almanlarla eyni statusa malik olurlar. Onların sosial müavinət, uşaqların böyüdülməsi üçün müavinət, cəmiyyətə inteqrasiya üçün dil kursları və s. imkanlardan istifadə etmək hüquqları yaranır. Əgər nə sığınacaq hüququ və ya qaçqın statusu verilmirsə, bir qayda olaraq, müraciətləri rədd edilən sığınacaq axtaran şəxslərin ölkəni tərk etmələri tələb olunur.

**Nəticə**

Beləliklə, dünyanın ən böyük üçüncü iqtsadiyyatına malik ölkə olan Almaniyanın miqrasiya siyasətinin iki başlıca istiqamətinin olduğunu deyə bilərik. Belə ki, bir tərəfdən Almaniya miqrasiya siyasətinin əsas məqsədi, əcnəbi ixtisaslı işçilərin Almaniyanın əmək bazarına çıxışının təmin edilməsidir. Bu ölkənin artan iqtisadiyyatının yaratdığı tələbi ödəmək məqsədi daşıyır. Almaniya miqrasiya qanununa edilən son dəyişikliklər də Almaniyaya ehtiyac duyulan sahələr üzrə yüksəkixtisaslı işçiləri cəlb etməyi hədəfləyir. Əcnəbi işçilər və onların ailə üzvləri üçün fürsət və imkanların yaradılması Almaniyanı əcnəbilər üçün daha cəlbedici edir. Qeyd edək ki, Almaniyaya miqrant axını ölkə iqtisadiyyatına və istehsalın artmasına müsbət təsir göstərir: birincisi, miqrant axını ölkədə işçilərin sayını artırır və nəticədə daha çox məhsul istehsal olunur. İkincisi, ixtisaslı işçilər yerli işçilərdən daha peşəkardırlar bu da öz növbəsində məhsuldarlığın artmasına səbəb olur [13].

Digər başlıca istiqamət isə beynəlxalq müdafiəyə ehtiyacı olan sığınacaq axtaran şəxslərin müdafiəsini təmin etmək və onları cəmiyyətə inteqrasiya etməkdir. Bu da Almaniyanın Konstitusiyasında qeyd olunan öhdəliyin yerinə yetirilməsi məqsədi daşıyır. Ölkənin qaçqınlar üçün verdiyi imkanlar dünyanın müxtəlif münaqişə ocaqlarından, eyni zamanda siyasi səbəblərdən ötrü öz ölkəsində təqib olunan insanların sığınacaq üçün Almaniyaya müraciət etməsinə səbəb olur.

Həmçinin, Almaniyanın güclü iqtisadiyyatı və sosial təminat sistemi insanların digər ölkələrə nisbətdə Almaniyaya daha çox miqrasiya etməsində vacib rol oynayır. Bundan əlavə iş imkanlarının çoxluğu, yüksək maaş, təmiz ətraf mühit, cinayət hallarının aşağı olması, inkişaf etmiş ictimai nəqliyyat Almaniyanı əcnəbilər üçün daha cəlbedici edir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Frequently Requested Statistics on Immigrants and Immigration in the United States (https://www.migrationpolicy.org/article/frequently-requested-statistics-immigrants-and-immigration-united-states-2024)*

*2. Bevölkerung mit Migrationshintergrund in Deutschland (https://www.bamf.de/DE/Themen/Forschung/Veroeffentlichungen/Migrationsbericht2019/PersonenMigrationshintergrund/personenmigrationshintergrund-node.html)*

*3. Bevölkerung mit Migrationshintergrund (https://www.bpb.de/kurz-knapp/zahlen-und-fakten/soziale-situation-in-deutschland/61646/bevoelkerung-mit-migrationshintergrund/)*

*4. Net Migration Surges, But Germany is Still Missing Skilled Workers (https://recruitonomics.com/net-migration-surges-but-germanys-still-missing-skilled-workers/#no-target)*

*5. Fakten zur Migrationspolitik der Bundesregierung (https://www.bundesregierung.de/breg-de/the-*

*men/migration-und-integration/fakten-migrationspolitik-2189208)*

*6. How to Leverage Germany's Labour Shortage (https://www.expatrio.com/about-germany/germanys-labour-shortage)*

*7. Almanyaya türk işgücü göçü (https://dergipark.org.tr/tr/download/article-file/9587)*

*8. Germany: New Immigration Bill seeks to Attract Non-EU Skilled Workers (https://www.fragomen.com/insights/germany-new-immigration-bill-seeks-to-attract-non-eu-skilled-workers.html)*

*9. Germany International Student Statistics 2024 (https://www.studying-in-germany.org/germany-international-student-statistics/)*

*10. Germany adopts new plan to reduce irregular migration (https://www.aa.com.tr/en/europe/germany-adopts-new-plan-to-reduce-irregular-migration/3046626)*

*11. Irreguläre Migration (https://www.bmi.bund.de/DE/themen/migration/irregulaere-migration/irregulaere-migration-node.html)*

*12. UNHCR's Refugee Population Statistics (https://www.unhcr.org/refugee-statistics/)*

*13. Germany's population is growing due to immigration (https://www.make-it-in-germany.com/en/living-in-germany/discover-germany/immigration)*

## MIGRATION POLICY OF GERMANY IN MODERN TIMES

### SUMMARY

The article examines the process of migration, which is one of the most urgent issues of the modern era. This process takes place in all countries of the world. For some countries, this creates several problems, while for others it creates new opportunities. In this respect, the European region differs more, especially the Federal Republic of Germany. Germany is particularly interested in the flow of skilled labor to the country, as the aging population and the country's labor market cannot meet the demands of a growing economy.

At the same time, Germany, under its constitutional obligation, grants this right to those seeking asylum due to political persecution in its own country, which causes an influx of refugees into the country.

In the article, the main directions of Germany's migration policy, the ways of the labor force coming to the country, the opportunities and opportunities created by the German government for them, and why this flow of labor is important to Germany are examined. At the same time, it was emphasized how important the current situation is based on statistical indicators.

**Key words:** *Germany, migration, migration policy, labor force, right to asylum.*

## MÜASİR DÖVRDƏ ALMANİYANIN MİQRASİYA SİYASƏTİ

### XÜLASƏ

Məqalədə müasir dövrün ən aktual məsələlərindən biri olan miqrasiya prosesi araşdırılır. Bu proses dünyanın bütün ölkələrində baş verir. Bəzi ölkələr üçün bu bir sıra problemlər yaratdığı halda, digər ölkələr üçün yeni fürsətlər açır. Bu baxımdan Avropa regionu, xüsusilə də Almaniya Federativ Respublikası daha çox fərqlənir. Əhalinin qocalması prosesi getiyindən, eyni zamanda ölkənin əmək bazarı artan iqtisadiyyatın tələblərini ödəyə bilmədiyindən Almaniya ölkəyə ixtisaslı işçi qüvvəsinin axınında xüsusilə maraqlıdır.

Eyni zamanda Almaniya öz Konstitusiyasından irəli gələn öhdəliyə əsasən ölkədə siyasi təqiblərə görə sığınacaq axtaran şəxslərə bu hüququ verir ki, bu da ölkəyə qaçqınların axınına səbəb olur..

Məqalədə Almaniyanın miqrasiya siyasətinin başlıca istiqamətləri, ölkəyə işçi qüvvəsinin gəlmə yollarını, Almaniya hökumətinin onlar üçün yaratdığı fürsət və imkanlar araşdırılmış, bu işçi axınının Almaniya üçün nədən əhəmiyyətli olduğu vurğulanmışdır. Eyni zamanda statistik göstəricilər əsasında mövcud vəziyyətin nə qədər vacib olduğuda vurğulanmışdır.

**Açar sözlər:** *Almaniya, miqrasiya, miqrasiya siyasəti, işçi qüvvəsi, sığınacaq hüququ.*